"AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

"Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir"
*İlham Əliyev*

# BÜLLETEN

№ 02 (18) • Fevral 2014-cü il    w w w . a z e r s u . a z    Qaynar xətt - 955

# İçməli su və kanalizasiya layihələri regionların inkişafına töhfə verir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:**
***"Su, kanalizasiya problemlərini növbəti 5 il ərzində tam şəkildə icra etməliyik"***

Fevralın 5-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunan konfrans-sərgi keçirilmişdir. Konfransda çıxış edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatının dinamik inkişafında və uğurların qazanılmasında regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının mühüm rol oynadığını bildirmişdir.

*ətraflı səh. 2,3*

## 6 şəhərin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulacaqdır

2014-cü ildə regionlarda içməli su və kanalizasiya infrastrukturlarının yenidən qurulması istiqamətində növbəti beynəlxalq layihənin icrasına başlanılacaqdır. İslam İnkişaf Bankı ilə birgə maliyyələşdirilən layihə respublikanın 6 rayon mərkəzini və ətraf kəndləri əhatə edəcək, ümumilikdə 280 minə qədər sakin faydalanacaqdır. Tikinti işlərinin operativ və keyfiyyətlə yerinə yetirilməsi üçün bütün tədbirlər görüləcəkdir.

*ətraflı səh. 8,9*

## 2013-cü ilin yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində içməli su təchizatı və kanalizasiya sektorunda 2013-cü ilin yekunları və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş müşavirə keçirilmişdir. Müşavirədə ayrı-ayrı sahələr üzrə görülmüş işlər barədə hesabatlar dinlənilmişdir. İclasın sonunda 2014-cü ildə qarşıda duran vəzifələr barədə tapşırıqlar verilmişdir.

*ətraflı səh. 4,5*

## "Azərsu" ASC "Hər kağızı bir yarpağa dəyişək" adlı aksiyaya öz dəstəyini vermişdir

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi İDEA İctimai Birliyinin təşəbbüsü ilə baş tutan "Hər kağızı bir yarpağa dəyişək" adlı aksiyada "Azərsu" Açıq Səhmdar Cəmiyyəti də yaxından iştirak edir. Səhmdar Cəmiyyətində istifadə olunmuş kağız materialları "ASAN xidmət" mərkəzinin qarşısında quraşdırılmış xüsusi məntəqəyə təhvil verilmişdir. Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

*ətraflı səh. 7*

## Təlimləri müvəffəqiyyətlə başa vurmuş mütəxəssislərə sertifikatlar verilmişdir

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində kadr potensialının gücləndirilməsi, işçilərin peşə hazırlığının artırılması istiqamətində həyata keçirilmiş növbəti layihə yekunlaşmışdır. Türkiyənin TeknoYapı şirkəti ilə əməkdaşlıq çərçivəsində 2013-cü ildə İstanbul şəhərində keçirilmiş təlim kurslarını müvəffəqiyyətlə başa vuran 160 mütəxəssisə sertifikatlar verilmişdir.

*davamı səh. 6*




# İçməli su və kanalizasiya layihələri

## *Prezident İlham Əliyev: Su, kanalizasiya problemlərini növbəti 5 il ərzində tam şəkildə icra etməliyik*

***Fevralın 6-da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunan konfrans-sərgi keçirilmişdir.***

Tədbirdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, regionların inkişafı və ölkəmizin iqtisadi potensialının güclənməsində 2004-2008 və 2009-2013-cü illəri əhatə edən dövlət proqramlarının böyük rolu olmuşdur. Sosial infrastruktur layihələrindən danışan Prezident İlham Əliyev bu sahədə içməli su layihələrinin xüsusi əhəmiyyəti olduğunu diqqətə çatdırmışdır. **“Su layihələri icra edilir. Mən su layihələrini sosial infrastruktur layihələrinə aid edirəm. Çünki bu, ilk növbədə sosialyönümlü tədbirlərdir. Bu gün ölkəmizin hər bir şəhərində içməli su, kanalizasiya layihələri icra edilir. Bir neçə şəhərdə artıq bu layihələr başa çatıb. Mən açılışlarda iştirak etmişəm. Artıq insanlara 24 saat ərzində fasiləsiz olaraq Dünya Səhiyyə Təşkilatının standartları səviyyəsində keyfiyyətli su verilir. Növbəti beş il ərzində bütün şəhərlərdə və əksər kəndlərdə yeni su xətləri çəkiləcək, kanalizasiya sistemi qurulacaqdır. Beləliklə, bütün dövrlərdə Azərbaycan xalqına böyük əziyyət verən su qıtlığı problemi aradan götürüləcəkdir”.**

Prezident İlham Əliyev növbəti 5 il üçün qəbul ediləcək üçüncü Dövlət Proqramının da ölkə iqtisadiyyatının möhkəmlənməsində mühüm əhəmiyyətə malik olacağını vurğulamışdır.

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, nəqliyyat naziri Ziya Məmmədov, kənd təsərrüfatı naziri Heydər Əsədov, ARDNŞ-in prezidenti Rövnəq Abdullayev, “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev çıxış etmişlər.

“Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov bildirmişdir ki, 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması sahəsində böyük işlər görülmüşdür. Dövlət büdcəsi vəsaiti və beynəlxalq maliyyə qurumlarından cəlb olunmuş kreditlər hesabına ümumilikdə 52 şəhəri və 730 kəndi əhatə edən layihələr üzrə işlər icra olunur. Həmin şəhərlərin 38-də tikinti işlərinə başlanılmış, 14-də isə layihə-smeta işləri başa çatdırılaraq və tikintiyə hazırlıq görülür. Artıq 8 şəhərdə su təchizatı və kanalizasiya sistemlərinin yaradılması yekunlaşmış, 12 şəhərə yeni mənbələrdən suyun verilməsi təmin edilmişdir. Nəticədə bu rayon mərkəzlərində yaşayan 330 min nəfərin su təchizatı əsaslı şəkildə yaxşılaşmışdır ki, onların da 125 mini ilk dəfə mərkəzləşdirilmiş qaydada su alanlardır.

Regionlarda həyata keçirilən böyük layihələrdən olan Şirvan-Muğan qrup su kəməri Biləsuvar, Neftçala, Salyan, Şirvan və Hacıqabul şəhərlərinin, həmçinin magistral kəmər boyunca yerləşən 121 kəndin, ümumilikdə 470 min sakinin su təminatına öz töhfəsini verməkdədir.

# regionların inkişafına töhfə verir

Mərkəzi Aran bölgəsini əhatə edən, Girdimançayın yatağında yerləşən Külüllü su mənbəyi layihəsi çərçivəsində məhsuldarlığı saniyədə 500 litr olan suqəbuledici qurğu tikilmişdir. Su mənbəyindən Kürdəmir, Ucar, Zərdab və Ağsu şəhərlərinə ümumilikdə 170 kilometr uzunluğunda magistral kəmərlər çəkilmiş 4 şəhərin hər birinə içməli suyun verilməsi təmin edilmişdir. Bu layihə tam başa çatdıqdan sonra 170 mindən çox sakin keyfiyyətli içməli su ilə təmin ediləcəkdir.

"Azərsu" ASC-nin sədri cənub bölgəsində yerləşən yaşayış məntəqələrinin su təchizatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən layihələr barədə məlumat vermiş və bildirmişdir ki, bu bölgədə əsas mənbə kimi Xanbulan və Viləşçay su anbarları seçilmişdir. Xanbulançay dəryaçası yaxınlığında Lənkəran, Astara şəhərləri və 39 kəndi su ilə təmin edəcək sutəmizləyici qurğu tikilmiş, Xanbulan-Lənkəran magistral su kəmərinin tikintisi başa çatdırılmış, Lənkəran şəhərinə içməli suyun verilməsi təmin edilmişdir. Astara şəhəri və rayonun kəndlərinin su təchizatının aparılması üzrə layihələndirmə işləri başa çatdırılmışdır və tikinti işlərinə bu ilin ikinci rübündə başlanılacaqdır.

Regionların inkişafı ilə bağlı Dövlət Proqramları çərçivəsində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən regionlarda 3430 kilometr içməli su xətti, 1225 kilometr kanalizasiya kollektorları və şəbəkəsi, 96 ədəd su anbarı, 39 ədəd su və kanalizasiya-nasos stansiyaları tikilmişdir. **"Dövlət Proqramlarının icrasından əvvəl ölkə üzrə xidmət göstərilən əhalinin cəmi 26 faizi fasiləsiz içməli su alırdısa, hazırda bu rəqəm 55 faizə çatdırılmışdır. Dövlət Proqramlarının icrasının ilk dövründən içməli sudan daha çox əziyyət çəkən kəndlərdə mərhələli şəkildə təxirəsalınmaz tədbirlərin icrasına başlanılmışdır. Su qıtlığı müşahidə olunan kəndlərdə ümumilikdə 135 subartezian quyusu qazılmış, 690 kilometr su xətti çəkilmiş, 36 su anbarı tikilmiş, nəticədə 210 mindən artıq əhalisi olan 280 kəndin içməli su təminatı yaxşılaşdırılmışdır".**

Tədbirə yekun vuran Prezident İlham Əliyev son 10 ildə əldə edilmiş uğurların növbəti illərdə də davam etdiriləcəyini, makroiqtisadi sabitliyin qorunacağını bəyan etmişdir. Dövlət başçısı sosial və infrastruktur layihələrinin davam etdiriləcəyini, içməli su və kanalizasiya layihələrinə xüsusi diqqət yetiriləcəyini bildirmişdir. **"İçməli su və kanalizasiya layihələri bütün şəhərlərdə başa çatmalıdır və əksər kəndləri də əhatə etməlidir. Bakıda 10 il bundan əvvəl cəmi 29 faiz əhali 24 saat ərzində su alırdısa, hazırda bu rəqəm 78 faizə çatmışdır. Ancaq Bakı kimi şəhərdə 100 faiz olmalıdır, bütün başqa şəhərlərdə də, həmçinin kəndlərdə də.**

**Beləliklə, qəbul ediləcək üçüncü proqramın həyata keçirilməsi nəticəsində bütün infrastruktur layihələri artıq tam şəkildə icra ediləcəkdir. Su layihələrinə gəldikdə, "Azərsu" şirkətinin xətti ilə işlər görülür, eyni zamanda, artezian quyularının qazılması da böyük məna daşıyır. Keçən il 104 kənd artıq bu üsulla su ilə təmin edilibdir. Bu ilin əvvəlində imzaladığım Sərəncam əsasında vəsait ayrılmışdır ki, cari ildə əlavə 250 kənddə artezian quyuları qazılsın. Beləliklə, yüz minlərlə insan yeni su mənbələri ilə təmin ediləcəkdir. Çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırılıbdır. Yüz minlərlə əhali artıq bu imkanlardan istifadə edir, bu il də investisiya proqramında bu, nəzərdə tutulub. Su, kanalizasiya problemlərini biz növbəti 5 il ərzində tam şəkildə icra etməliyik".**



# 2013-cü ilin yekunlarına həsr

## Qorxmaz Hüseynov: *“Əsas məqsədimiz istehlakçılara yüksək səviyyədə xidmət göstərmək, əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etməkdir”*



***Fevralın 12-də “Azərsu” Açıq Səhmdar Cəmiyyətində içməli su təchizatı və kanalizasiya sektorunda 2013-cü ilin yekunları və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş müşavirə keçirilmişdir.***

Müşavirəni giriş sözü ilə açan “Azərsu” ASC-nin sədri Q.Hüseynov bildirmişdir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət ölkəyə yeni-yeni töhfələr vermişdir. 2013-cü ildə Azərbaycan iqtisadiyyatı dinamik inkişaf etmiş, yeni infrastruktur layihələri həyata keçirilmiş, əhalinin sosial rifahı daha da yaxşılaşmışdır. İl ərzində Azərbaycanda ümumi daxili məhsul istehsalı 5,8 faiz artaraq 57 milyard manata çatmışdır. Ümumi daxili məhsulun adambaşına düşən göstəricisi 6132 manat təşkil etmişdir.Ötən il infrastruktur sahələrində, o cümlədən su təchizatı və kanalizasiya sektorunda mühüm layihələr həyata keçirilmişdir. Dövlət başçısının bu sahəyə göstərdiyi diqqət və qayğısı nəticəsində içməli su təchizatı və kanalizasiya sektoru 2013-cü ildə yeni inkişaf dövrünə qədəm qoymuşdur: **“Dövlət başçısının əhalinin 24 saat fasiləsiz və keyfiyyətli içməli su il təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq 2013-ci ildə bu sahədə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. 2013-cü ildə icra olunan layihələr 24 şəhər və rayon mərkəzini, həmçinin 300-dən çox kəndi əhatə etmişdir. Ötən ilin ən əlamətdar hadisələri möhtərəm Prezident İlham Əliyevin iştirakı ilə 9 şəhər mərkəzinə içməli suyun verilməsi, həmçinin Mərkəzi Laboratoriyanın yeni binasının açılışı oldu. Ötən il əhaliyə göstərilən içməli su və kanalizasiya xidmətlərində keyfiyyət dəyişiklikləri müşahidə olunmuşdur. Şirvan-Muğan Qrup su kəməri, Külüllü su mənbəyi və Ceyranbatan-Qala magistral su kəməri layihələrinin yekunlaşması ilin mühüm hadisələri kimi tarixə düşmüşdür”.**

2013-cü ildə Novxanı-Sumqayıt kanalizasiya kollektorunun tikintisi başa çatmış, Dərnəgül-Balaxanı-Qaraçuxur, Xirdalan-Xocahəsən, Pirşağı sahilboyu, Bayıl-Bibiheybət kanalizasiya kollektorlarının inşasına başlanılmışdır.

Ümumilikdə il ərzində 2061 km içməli su, 534 km kanalizasiya xətləri çəkilmiş, 20 ədəd su anbarı və 19 ədəd nasos stansiyası tikilmiş, 15 ədəd artezian və subartezian quyuları qazılmış, 191 minə qədər smart-kart tipli su sayğacı quraşdırılmışdır. Bununla da ölkə üzrə sayğaclaşma səviyyəsi 2012-ci ildəki 48,5 faizdən 55,6 faizə yüksəlmişdir.

Hesabat dövründə mənbələrdən 700 milyon kubmetrədək su götürülmüşdür ki, bu da 2012-ci illə müqayisədə 5,8 faiz çoxdur. Ötən il istehlakçılara verilən içməli suyun satışı 8,6 faiz artmış, su itkiləri isə 5,6 faiz azalmışdır. İl ərzində içməli və kanalizasiya xidmətlərinə görə yığım səviyyəsi 125 faiz artaraq 139,3 milyon manat təşkil etmişdir.

Görülmüş tədbirlər nəticəsində 191 min nəfər ilk dəfə mərkəzləşmiş qaydada içməli su ilə təmin olunmuşdur.

2013-cü ildə Bakı şəhəri və Abşeron yarımadası üzrə 900-dək çoxmərtəbəli yaşayış binasının həyətində və daxili su təchizatı sistemlərində yenidənqurma işləri aparılmışdır. Bu tədbirlər çərçivəsində binaların zirzəmilərində ümumi uzunluğu 9500 metr su, 30260 metr kanalizasiya şəbəkələri dəyişdirilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində su itkilərinin qarşısı alınmış və binaların zirzəmilərində antisanitariya vəziyyəti aradan qaldırılmışdır.

# olunmuş müşavirə keçirilmişdir

2013-cü ildə Səhmdar Cəmiyyətin beynəlxalq əlaqələri daha da genişlənmiş, Master Planın hazırlanması üzrə işlər başa çatdırılmış, yeraltı infrastrukturların AzersuGİS-ə daxil edilməsi işlərinə başlanılmışdır. Görülmüş tədbirlər nəticəsində 2626 km yeraltı su xətləri və ümumi uzunluğu 9313 km olan küçə və prospektlər coğrafi informasiya sistminə daxil edilmişdir.

Ötən il maddi-texniki bazanın gücləndirilməsi, kadr hazırlığı, əməyin təhlükəsizliyi, ekoloji və sosial məsələlərə diqqət artırılmışdır. Əməyin təhlükəsizliyi qaydalarının qorunması məqsədi ilə işçilər xüsusi geyim və qoruyucu vasitələrlə təmin olunmuşlar. Ekoloji tədbirlər çərçivəsində isə təqribən 30 hektar sahədə 29,5 min ədədə müxtəlif növ ağac və gül kolları əkilmiş, 100 hektar sahədə abadlıq işləri aparılmışdır.

Hesabat dövründə sosial məsələlər də diqqətdə saxlanılmışdır. 2013-cü ildə məcburi köçkün ailələrinə və uşaq evlərinə yardım edilmiş, işçilərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət mərkəzləri və sanatoriyalara göndərişlər verilmişdir.

Daha sonra "Azərsu" ASC sədrinin istismar üzrə müavini Köçərli Həsənov, sədrin tikinti üzrə müavini Seymur Seyidov, informasiya-kommunikasiya texnologiyaları üzrə müşavir İlham Bayramov, Abonent işləri departamentinin rəis müavini Elşad Quliyev, "Gəncə Sukanal" İdarəsinin rəisi Bəhlul Ramazanov və Suraxanı rayon Sukanal idarəsinin rəisi Rövşən Kazımov hesabat məruzəsi ilə



çıxış edərək, müvafiq sahələr üzrə 2013-cü ildə görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat

**"Şirvan-Muğan Qrup su kəməri, Külüllü su mənbəyi və Ceyranbatan-Qala magistral su kəməri layihələrinin yekunlaşması ilin mühüm hadisələri kimi tarixə düşmüşdür"**

vermişlər.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov iclasa yekun vuraraq 2014-cü ildə görüləcək işlər və qarşıda duran vəzifələr barədə tapşırıqlar vermişdir. 2013-cü ildə Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində işlərin davam etdiriləcəyini deyən Səhmdar Cəmiyyətin sədri cari ildə beynəlxalq layihələr çərçivəsində bir sıra rayonlarda işlərə başlanılacağını diqqətə çatdırmışdır. Q.Hüseynov "Azərsu" ASC-nin yeni texnologiyalardan istifadəni prioritet seçdiyini xatırladaraq kadr hazırlığı istiqamətində təxirəsalınmaz tədbirlərin görülməli olduğunu vurğulamışdır.

"Azərsu" ASC-nin sədri su itkilərinin azaldılması məqsədi ilə abunəçilərlə işin təkmilləşdirilməsi, içməli sudan qeyri-qanuni istifadə hallarının azaldılması, istismar, əməyin mühafizəsinin təşkili və ekologiya sahəsində tədbirlərin davam etdirilməsi barədə ciddi tapşırıqlar vermişdir. İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, abunəçilərlə normal ünsiyyət və davranış qaydalarının təmin edilməli olduğunu xüsusi vurğulamışdır: **"Əsas məqsədimiz istehlakçılara yüksək səviyyədə xidmət göstərmək, daha çox vətəndaşı keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etməkdir. 2014-cü ildə bu sahədə qarşımızda yeni vəzifələr dayanır. Ümid edirəm ki, su təsərrüfatı işçiləri əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də qarşıya qoyulmuş vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirərək daha böyük nailiyyətlər qazanacaqlar".**



*(Əvvəli 1-ci səhifədə)*
***Fevralın 19-da keçirilən tədbirdəki çıxışında "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov ölkədə həyata keçirilən su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri barədə məlumat verərək işlərin keyfiyyətli icrasını təmin etmək məqsədilə yeni texnologiyalardan və yüksək ixtisaslı mütəxəssislərin təcrübəsindən istifadə olunduğunu diqqətə çatdırmışdır. Gənc mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması, bilik və bacarıqlarının, iş təcrübəsinin yüksəldilməsi məqsədi ilə gənc mütəxəssislər təlim kurslarına cəlb edilirlər.***



# Təlimləri müvəffəqiyyətlə başa vurmuş mütəxəssislərə sertifikatlar verilmişdir

Ötən il "Azərsu" ASC-nin 160 gənc mütəxəssisi Türkiyə Su İnstitutu, İstanbul şəhər Sukanal İdarəsi və digər təşkilatlarda təlimlərdə iştirak etmişlər. Təlim çərçivə-



sində Səhmdar Cəmiyyətin mexanika, energetika, avtomatika, içməli su və çirkab sutəmizləyici qurğuların istismarı, abonent işləri, informasiya kommunikasiya texnologiyaları, tikinti və digər sahələr üzrə mütəxəssisləri istehsalat sahələri ilə tanış olmaq imkanı qazanmışlar. Türkiyəyə ezam olunmuş mütəxəssislər təlimləri uğurla başa vurmuş və müvafiq sertifikatlara layiq görülmüşlər: **"Təlimlər Türkiyənin yüksək ixtisaslı alimləri və mütəxəssisləri tərəfindən keçirilmiş və istehsalat sahələrində olan əməkdaşlarımıza texnoloji proseslərin incəlikləri əyani şəkildə izah edilmişdir. Əgər 2012-ci ildə Türkiyədə keçirilmiş təlimlərdə 80 gənc mütəxəssis iştirak etmişdisə ötən il qarşılıqlı razılıq əsasında təlimlərin sayı artırıldı və 160 mütəxəssis Türkiyəyə ezam olundu. Qaydalara uyğun olaraq təlimdən əvvəl və sonra gənc mütəxəssislərin bilik səviyyələri qiymətləndirilir. Bu dəfə də imtahanların nəticələri təlimlərin böyük fayda verdiyini üzə çıxardı. Təlimlər təcrübə mübadiləsi və karyera yüksəlişi baxımından da əhəmiyyətli olmuşdur. Belə ki, qazanılmış təcrübə, səmərəli fəaliyyət və digər amillər nəzərə alınaraq ötənilki təlimlərdə iştirak etmiş əməkdaşlardan bəziləri şöbə rəisi, sahə rəisi və növbə rəisi vəzifələrinə irəli çəkilmişlər. Bununla yanaşı təlim kursla-**



**rında iştirak edənlər qazandıqları bilik və təcrübələri həmkarları ilə bölüşməklə ümumi işə öz töhfələrini verirlər".**

Tədbirdə iştirak edən Türkiyə Su İnstitutunun sədri Ahmet Saatçı təlimlərdə iştirak etmiş azərbaycanlı mütəxəssislərin bilik və təcrübə səviyyəsindən razı qaldığını bildirərək qeyd etmişdir ki, tədris prosesində əldə olunan uğurlar onların peşəkar kadr kimi formalaşmasına müsbət təsir göstərəcək: **"Gənc olmalarına baxmayaraq, iştirakçıların təlim prosesində yeni texnologiyalar və qabaqcıl təcrübələrin öyrənilməsinə böyük həvəs və maraq göstərdiklərinin şahidi olduq. Ümid edirəm ki, iştirakçılar təlimlərdə qazandıqları təcrübəni gələcək fəaliyyətlərində uğurla tətbiq edəcəklər".**

Türkiyənin "TeknoYapı" şirkətinin idarə heyətinin üzvü Həsən Sarıkaya təlimlərin yüksək səviyyədə təşkil olunması üçün bütün imkanlardan istifadə olunduğunu bildirmişdir: **"Tədris prosesində "Azərsu" ASC-nin əməkdaşlarının böyük marağının şahidi olduq. Təlimlər müxtəlif sahələr üzrə keçirilsə də biz kadrların hərtərəfli bilgi əldə etməsi üçün su təchizatı və kanalizasiya infrastrukturunun bütün incəlikləri barədə məlumat verdik".**

Təlimlərdə iştirak etmiş Azər Fərzəliyev, Sənginur Quliyeva, Samir İlyasov təd-



ris prosesində qazandıqları bilik və təcrübənin gələcək fəaliyyətlərində tətbiq edəcəklərini bildirmişlər.

Tədbirin sonunda təlimlərdə iştirak etmiş gənc mütəxəssislərə sertifikatlar təqdim olunmuşdur.

# Tikinti-quraşdırma işləri geniş vüsət almışdır



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulması ilə bağlı tapşırıqlarına uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən kompleks tədbirlər həyata keçirilir. Təsdiqlənmiş dövlət proqramlarının icrasını təmin etmək, eləcə də göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə 2013-cü ildə genişmiqyaslı tikinti-quraşdırma işləri həyata keçirilmişdir.***

Statistik məlumatlar göstərir ki, Səhmdar Cəmiyyətinin yarandığı vaxtdan-2004-cü ildən indiyədək ən böyük miqyasda tikinti işləri 2013-cü ildə icra edilmişdir. İl ərzində 2062 km uzunluğunda su xətti çəkilmişdir ki, bu da 2012-ci illə müqayisədə 62 faiz çoxdur. Çəkilmiş su xətlərinin 1222 km-i regionlarda həyata keçirilmiş layihələrin payına düşür. 2013-cü ildə 534 km uzunluğunda kanalizasiya xətti çəkilmişdir ki, bunun da 433 km-i regionlarda inşa edilmişdir. Ötən il paytaxt və regionlarda 17 ədəd su, 2 ədəd kanalizasiya nasos stansiyaları tikilərək istismara verilmişdir. 2013-cü ildə anbarların tikintisi və yenidən qurulması üzrə işlərin həcmi 2 dəfə artmışdır. Belə ki, il ərzində 28-i rayonlarda olmaqla 56 ədəd su anbarı tikilmişdir. İl ərzində 15 ədəd artezian və subartezian quyuları qazılmış, 191 min ədəd smart-kart sayğacı quraşdırılmışdır.

2011-2013-cü illərdə Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə 2013-cü ildə içməli su təchizatı və kanalizasiya infrastrukturlarının yaradılması və yenidən qurulması istiqamətində işlər davam etdirilmişdir. Bu məqsədlə ümumi uzunluğu 820 km içməli su xətti, çəkilmiş və 300 km su xətti təmir edilmişdir. Layihələrə uyğun olaraq ümumi uzunluğu 200 km olan kanalizasiya xətləri və kollektorları tikilmiş, 26 km kanalizasiya xətləri yenidən qurulmuşdur.

Dövlət Proqramının icra edildiyi müddətdə 220 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin edilmiş və fasiləsiz su alan əhalinin sayı 900 min nəfərdən 1 milyon 760 min nəfərə çatdırılmışdır.

# "Azərsu" ASC "Hər kağızı bir yarpağa dəyişək" adlı aksiyaya öz dəstəyini vermişdir



"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ətraf mühitin qorunması, ekoloji sabitliyin təmin olunması və bu sahədə maarifləndirmə işlərinin aparılması məqsədi ilə həyata keçirilən tədbirlərdə yaxından iştirak edir. İDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi, "ASAN xidmət" və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə həyata keçirilən "Hər kağızı bir yarpağa dəyişək" adlı aksiyaya "Azərsu" ASC də öz dəstəyini vermişdir. Səhmdar Cəmiyyətdə istifadə olunmuş 350 kq kağız fevralın 17-də "ASAN xidmət" mərkəzinə təqdim olunmuşdur.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi İDEA İctimai Birliyinin təşəbbüsü ilə baş tutan layihə "Təbiətin qorunması üçün 10 mesaj" devizi ilə həyata keçirilir. Layihənin həyata keçirilməsində əsas məqsəd cəmiyyətin ekoloji problemlərlə mübarizədə bütün təbəqələrinin iştirakının təmin edilməsidir. Real ekoloji layihələr vasitəsilə insanlar arasında maarifləndirmə işini effektiv şəkildə artırmaq və ekoloji mühitə dəyən zərəri minimuma endirməklə tullantıların düzgün istifadəsini təşkil etməkdir.

Layihə çərçivəsində dövlət qurumları, özəl təşkilatlar və vətəndaşlar tərəfindən istifadə olunmuş kağızlar Bakı şəhərindəki "ASAN xidmət" mərkəzlərinin qarşısında quraşdırılmış xüsusi məntəqələrə təhvil verilir. Təhvil verilən kağızlar xüsusi konteynerlərdə toplanılır və onların qeydiyyatı aparılır. Layihəyə əsasən hər 50 kq kağız qarşılığında bir ədəd ağacın alınması və həmin ağacın Bakı şəhəri ərazisində əkilməsi planlaşdırılır.

# 6 şəhərin su təchizatı və kanalizasiya sistemləri



## Arzuman Bayramov: *"Bu layihənin tam başa çatdırılması nəticəsində ümumilikdə 280 minə qədər sakinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşacaqdır"*

***2014-cü ildə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti regionlarda içməli su və kanalizasiya infrastrukturlarının yenidən qurulması istiqamətində növbəti beynəlxalq layihənin icrasına başlayır. İslam İnkişaf Bankı ilə birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi" çərçivəsində Astara, Daşkəsən, Gədəbəy, Qazax, Samux və Tərtərdə su təchizatı və kanalizasya sistemləri yenidən qurulacaqdır. Bu sahədə mövcud vəziyyət və qarşıda duran vəzifələr barədə sualları "Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi" üzrə idarəetmə qrupunun rəhbəri Arzuman Bayramov cavablandırır.***

***- Əvvəlcə istərdik ki, Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı arasında su təchizatı və kanalizasiya sektorunda əməkdaşlığın tarixi barədə məlumat verəsiniz.***

- Məlum olduğu kimi, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti şəhər və rayon mərkəzlərinin, həmçinin ətraf kəndlərdə su və kanalizasiya infrastrukturlarının yaradılması istiqamətində geniş işlər həyata keçirir. Bu layihələrin bir hissəsi beynəlxalq maliyyə qurumları ilə birgə icra olunur. Bu ildən daha bir beynəlxalq layihənin icrasına başlanılır. İslam İnkişaf Bankı ilə birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi" Astara, Daşkəsən, Gədəbəy, Qazax, Samux və Tərtərdə su təchizatı və kanalizasya sistemlərinin yenidən qurulmasından ibarətdir. Layihənin maliyyələşdirilməsi ilə bağlı Azərbaycan Respublikası hökuməti 2011-ci ilin aprelində İslam İnkişaf Bankına (İİB) rəsmi müraciət etmişdir. Elə həmin ilin dekabrında İİB tərəfindən İstisna Sazişi və Agent Saziş Azərbaycan hökumətinə təqdim edilmişdir. 2012-ci ilin aprelində hər iki saziş Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən imzalanmışdır.

Layihə işlərinin həyata keçirilməsi ilə bağlı məsləhətçi sirkət seçilmişdir. Beynəlxalq standartlara və İİB-nin qaydalarına uyğun keçirilmiş tenderin nəticələrinə əsasən məsləhət xidmətlərinin göstərilməsi Türkiyənin Gentek Consult LTD şirkətinə həvalə edilmişdir.

***- Layihənin icrası ilə bağlı hazırda işlər hansı mərhələdədir?***

- Artıq 6 rayon üzrə içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə işçi layihələrinin hazırlanması işləri tam başa çatdırılmışdır. Hazırlanmış layihələr "Azərsu" ASC-də daxili ekspertizadan keçmiş və məsləhətçi şirkət tərəfindən həmin sənədlərə müsbət rəy verilmişdir. Təsdiqlənmiş layihələr üzrə tenderlərin keçirilməsi üçün İslam İnkişaf Bankının standartlarına uyğun sənədlər hazırlanır.

***- Astara, Daşkəsən, Gədəbəy, Tərtər, Samux və Qazax şəhərlərinin su təchizatı və kanalizasiya infrastrukturlarının mövcud vəziyyəti və hazırda xidmət göstərilən istehlakçılar barədə nə deyə bilərsiniz?***

- Qeyd olunan şəhərlər üzrə su təchizatı və kanalizasiya sistemləri 1960-70-ci illərdə yaradılmışdır. Layihənin əhatə etdiyi hər bir şəhərin su təchizatı infrastrukturu köhnəlmiş, böyük bir hissəsi isə istifadəyə yararsız vəziyyətdədir. Qazax və Daşkəsən şəhərlərindən başqa, digər şəhərlərdə kanalizasiya sistemi demək olar ki, mövcud deyil. Magistral xətlərdə və şəbəkələrdə zədələnmə və qəza riskləri çox yüksəkdir. Həmçinin, sistem köhnə olduğundan verilən suyun hətta minimal qaydada təmizlənməsində ciddi çətinliklər mövcuddur. Bununla yanaşı, bu şəhərlərin yalnız bəzilərində çirkab su təmizləyici qurğular vardır ki, həmin qurğular tam yararsız vəziyyətdədir və onların istismarı praktik olaraq mümkün deyildir.

Bir sözlə, Astara, Daşkəsən, Gədəbəy, Tərtər, Samux və Qazax şəhərləri üzrə istehlakçıların böyük bir hissəsi normal qaydada içməli su və kanalizasiya xidmətləri ilə təmin olunmamışdır. Bütün bunlar qeyd olunan şəhərlərin su və kanalizasiya sistemlərinin yenidənqurulması zərurətini yaradır.

***- Həmin şəhərlər üzrə layihələndirmə işləri aparılarkən hansı meyarlar əsas götürülüb?***

- İşçi layihə sənədləri hazırlanarkən ilk növbədə 2035-ci ilə proqnozlaşdırılan əhali sayı və iqtisadiyyatın inkişaf dinamikası nəzərə alınmışdır. Eyni zamanda layihələrin daha geniş əraziləri və istehlakçıları əhatə etməsinə maksimum diqqət yetirilmişdir. Bu məqsədlə qeyd etdiyimiz şəhərlərdə su və kanalizasiya sistemlərinin tamamilə yenidən qurulması işləri aparılacaqdır. Layihə işləri aparılarkən həmin şəhərlərin və onlara bitişik kəndlərin suya olan tələbatının və kanalizasiya ehtiyaclarının ödənilməsi şərtləri əsas olaraq qəbul edilmişdir. Həmçinin magistral su və kanalizasiya kollektorlarının texniki parametrlərinin hesablanması zamanı şəhərlərin ətrafında, həmçinin magistral xətlərin üzərində yerləşən kəndlərin də gələcəkdə yeni sistemlərə qoşulması nəzərə alınmışdır.

***- Layihənin əhatə dairəsi, görüləcək işlər və faydalanacaq istehlakçılar barədə məlumat verərdiniz...***

- Bildirmək istəyirəm ki, nəzərdə tutulan layihə-tikinti işlərinin tam şəkildə başa çatdırılması nəticəsində 6 rayon üzrə ümumilikdə 280 minə qədər sakinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşacaqdır. İstərdim ki, layihənin əhatə etdiyi hər bir şəhər üzrə qısa şəkildə məlumat verim.

# yenidən qurulacaqdır

Astara şəhəri üzrə xidmət göstəriləcək əhalinin sayı 102 min nəfər təşkil edir ki, onların da 73-i nəfəri kənd sakinləridir. Qeyd etmək istəyirəm ki, magistral su xətti üzərində yerləşən və layihəyə daxil edilən 27 kənd var. Astara şəhərinə içməli suyun verilməsi üçün su mənbəyi olaraq, Xanbulançay su anbarı qəbul edilmişdir. Astara şəhərinin kəndlərlə birlikdə su ehtiyacı saniyədə 148,9 litr təşkil edir. Xanbulançay su anbarından suyu götürməklə yeni yaradılacaq şəhər şəbəkəsinə suyun verilməsi üçün 24,8 km olan magistral su xətti çəkiləcəkdir. Burada yeni yaradılacaq kanalizasiya sistemindən Astara şəhəri ilə yanaşı, əlavə 16 kənd də yararlanacaqdır. Kanalizasiya şəbəkəsinin gələcəkdə istismarında qarşıya çıxa biləcək problemləri nəzərə alaraq, nasos qurğularından istifadə minimuma endirilmişdir. Buna görə də ərazidə kollektor xətti mikrotunel şəkilində layihələndirilmişdir.

Gədəbəy şəhəri üçün su Südlübulaq su mənbəyindən aparılacaq. Xidmət göstəriləcək əhalinin sayı ətraf 5 kəndlə birlikdə 23 min nəfər təşkil edir. Gədəbəy şəhəri dağlıq ərazidə yerləşdiyi üçün relyefə uyğun olaraq, burada müxtəlif həcmli 7 anbarın tikintisi nəzərdə tutulur. Həmçinin su mənbəyindən şəhərə 14.5 km uzunluğunda magistral kəmər çəkiləcəkdir. Bununla yanaşı şəhərin su və kanalizasiya şəbəkələri tamamilə yenidən qurulacaqdır.

Daşkəsən şəhərinin su mənbəyi Qarainək və Gurbulaq bulaqları seçilmişdir. Magistral su xətti vasitəsilə şəhərə suyun verilməsi nasos qurğuları, eyni zamanda özaxımlı olmaqla təmin ediləcəkdir. Bildirmək istəyirəm ki, su təchizatı sistemindən yararlanacaq əhalinin sayı Alünütdağ və Mədənçilər kəndləri ilə birlikdə 18 min nəfər təşkil edəcək.

Tərtər şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması nəticəsində ümumilikdə 47 min nəfər faydalanacaqdır. Qeyd etmək istəyirəm ki, Tərtər şəhərinin su təminatı Tərtərçayın sahilində qazılacaq subartezian quyularının hesabına həyata keçiriləcəkdir. Yeni su təchizatı sistemin yaradılması zamanı rayonun ümumi əhalisi 26 min nəfər olan 11 kəndi də nəzərə alınmışdır. Bütün bunlarla yanaşı şəhərin kanalizasiya sistemi də tamamilə yenidən qurulacaqdır.

Samux şəhərinin su və kanalizasiya sistemlərinin layihəsinin həyata keçirilməsi ümumilikdə 40 min nəfərin bu sistemlərdən istifadəsinə imkan verəcəkdir. Burada su təminatı Gəncə şəhərinin su təchizatı sistemi vasitəsilə aparılacaqdır. Yeni sistemin yaradılmasından Samux şəhəri və ətraf 8 kəndin əhalisi də faydalanacaqdır.

Nəhayət Qazax şəhərinin və ətraf 3 kəndin su ehtiyacı rayonun Xılxına kəndi ərazisində qazılacaq subartezian quyularının hesabına təmin olunacaqdır. Layihə işlərinin başa çatdırılması nəticəsində 45 minə yaxın əhalinin su təminatı yaxşılaşacaqdır.

***- Tikinti-quraşdırma işlərinə nə zaman başlanılması nəzərdə tutulur və layihənin icra müddəti nə vaxt bitəcək?***

- Ümumilikdə bu şəhərlərdə tikinti-quraşdırma işlərinə cari ildə başlanması proqnozlaşdırılır. Amma ayrı-ayrı şəhərlər üzrə layihələrdən asılı olaraq təməlqoyma mərasimləri ilin müxtəlif vaxtlarında olacaqdır. Bu da layihəyə hazırlıq işləri ilə birbaşa bağlıdır. Məsələn, Gədəbəy şəhəri üzrə tender sənədləri İslam İnkişaf Bankına təqdim edilmişdir. Daşkəsən şəhəri üzrə tender sənədləri hazırlanmaqdadır. Astara, Tərtər və Samux şəhərlərinin su təchizatı və kanalizasiya sistemlərinin işçi layihələri tam şəkildə hazırlanmışdır və məsləhətçi şirkət tərəfindən təsdiqlənmişdir. Satınalma prosedurlarına başlamaq məqsədilə ilkin tender sənədləri hazırlanır. Qazax şəhəri üzrə su təchizatı və kanalizasiya sistemlərinin işçi layihələri su mənbəyi istisna olmaqla tam şəkildə hazırlanmışdır. Hazırda su mənbəyinin layihələndirilməsi işləri həyata keçirilir. Bütün bunlarla yanaşı Astara, Gədəbəy və Samux rayonlarında çirkab sutəmizləyici qurğuların layihələri başa çatdırılmış və məsləhətçi şirkət tərəfindən təsdiq edilmişdir. Tikinti işlərinə proqnozlaşdırıldığı vaxtda başlanılsa hesab edirəm ki, yaxın 2016-2017-ci illərdə layihələr yekunlaşa bilər. Layihənin vaxtında və keyfiyyətlə icrasını təmin etmək üçün bütün imkanlardan istifadə olunacaqdır.

# Xocalı Sukanal İdarəsinin işçilərinə ərzaq yardımı edilmişdir

Xocalı faciəsinin 22-ci ildönümü ərəfəsində "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində fəaliyyət göstərən Xocalı Sukanal İdarəsinin işçiləri ilə görüş keçirmişlər.

Görüşdə Xocalı sakinləri faciə barədə acı xatirələrini danışmış, bu soyqırımın təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə insanlığa yönəlmiş terror aktı olduğunu qeyd etmişlər. Bildirilmişdir ki, qaçqın və məcburi köçkünlər müvəqqəti olaraq doğma torpaqlarından uzaq düşsələr də daim dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşlar. O da vurğulanmışdır ki, "Azərsu" ASC-nin idarə və müəssisələrində çalışan müharibə veteranlarının, əlillərin, şəhid ailələrinin üzvlərinin, qaçqın və məcburi köçkünlərin, o cümlədən Xocalıdan olan işçilərin sosial problemlərinin həlli Səhmdar Cəmiyyət tərəfindən daim diqqətdə saxlanılır.

Tədbirin sonunda Xocalı Sukanal İdarəsinin əməkdaşlarına yardımlar təqdim olunmuşdur.

# 1102 mütəxəssis təlimlərdə iştirak etmişdir

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti kadr potensialının gücləndirilməsi, işçilərin peşə hazırlığının artırılması istiqamətində tədbirləri davam etdirir. Gənc mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması, iş təcrübəsinin yüksəldilməsi məqsədi ilə Səhmdar Cəmiyyətin Təlim-Tədris Mərkəzi tərəfindən yerli və xarici mütəxəssislərin iştirakı ilə mütəmadi treninqlər təşkil edilir. İnkişaf etmiş ölkələrin su təchizatı və kanalizasiya sektorundakı təcrübələrinin öyrənilməsi üçün mütəxəssislər xarici ölkələrə ezam olunaraq təlimlərdə iştirak edirlər.***

"Azərsu" ASC-nin su təchizatı və kanalizasiya sistemlərində yeni texnologiyaların tətbiqi ilə əlaqədar 2013-cü ildə həm ölkə daxilində, həm də xarici ölkələrdə təşkil olunmuş 54 təlimə Səhmdar Cəmiyyətin 1102 nəfər işçisi cəlb olunmuşdur. Mütəxəssislərdən 165 nəfəri Türkiyə, Yaponiya, Koreya Respublikası, Flippin və Sinqapurda keçirilmiş təlimlərdə iştirak etmiş, xarici ölkələrin təcrübəsi ilə tanış olmuşdur. Xarici ölkələrə ezam olunmuş mütəxəssislər layihələndirmə, çirkab suların idarəedilməsi və satınalmalar üzrə təşkil olunmuş təlimlərdə iştirak etmişlər.

Qeyd edək ki, 2012-ci ildə təşkil olunmuş 21 təlimdə 482 nəfər iştirak etmişdir.



# Ucar şəhərinin içməli su təchizatı yaxşılaşdırılmışdır

***"Azərsu" Açıq Səhmdar Cəmiyyəti bölgələrdə də su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində kompleks tədbirləri davam etdirir. Dövlət büdcəsi hesabına maliyyələşdirilən layihə çərçivəsində Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə işlərin böyük hissəsi yekunlaşmışdır.***

Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 57 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır. Layihə Ucar şəhəri ilə yanaşı, rayonun 11 kəndini də əhatə edir.

İcrasına 2011-ci ilin oktyabrında başlanılmış "Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksinin yenidən qurulması layihəsi"nə əsasən Ucar şəhərini keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün Külüllü su mənbəyi seçilmişdir. Su mənbəyində Ucar şəhərini içməli su ilə təmin etmək üçün hər birinin tutumu 3750 kubmetr olan 2 ədəd su anbarı tikilmişdir. Buradan şəhər mərkəzinədək 500-560 mm diametrli polietilen borularla 57 km uzunluğunda magistral su xəttinin çəkilişi başa çatmış və şəhərə suyun verilməsinə başlanılmışdır. Özüaxımlı rejimdə olan magistral xətdən marşrut boyunca yerləşən 11 kəndin hər birinə çıxışlar verilmişdir. Ucar şəhərini dayanıqlı rejimdə içməli su ilə təmin etmək üçün şəhər mərkəzində hər birinin tutumu 1500 kubmetr olan 2 ədəd su anbarı tikilir. Külüllü-Ucar magistral xətti ilə Ucar şəhərinə su verildikdən sonra şəhərdə fasiləsiz su təchizatı rejiminə keçilmiş, uzun müddət su almayan küçə və məhəllələrin içməli su problemi öz həllini tapmışdır.

Layihəyə uyğun olaraq Ucar şəhərində 105 km şəhərdaxili su şəbəkəsinin 99 km-lik hissəsində işlər başa çatmış, 4 minə yaxın evə birləşmə verilmişdir. İçməli su və kanalizasiya xidmətlərindən istifadənin dəqiq uçotunun aparılması məqsədi 4170 abunəçinin 2120-si smart-kart tipli su sayğacları ilə təmin edilmişdir. Ucar Sukanal İdarəsi üçün yeni inzibati binanın tikintisi isə yekunlaşmaq üzrədir.

Layihəyə əsasən, Ucar şəhərində yaranacaq çirkab suların axıdılması üçün ümumi uzunluğu 88 km-ə yaxın kanalizasiya şəbəkəsi qurulacaq. Artıq kanalizasiya şəbəkəsinin 20 km-lik hissəsində tikinti işləri başa çatmışdır. Xatırladaq ki, yeni layihənin icrasına qədər Ucar şəhərinin sakinləri fasilələrlə artezian suyu alır və ya arx sularından istifadə edirdi.

# Azərbaycanın ilk geoekoloji xəritəsi hazırlanmışdır

***"Azərsu" Açıq Səhmdar Cəmiyyətində elmi yeniliklərin və yeni texnologiyaların mənimsənilməsi və tətbiqinə xüsusi diqqət yetirilir. Səhmdar Cəmiyyətdə fəaliyyət göstərən alimlərin tədqiqat əsərləri Azərbaycan elminin inkişafına özünəməxsus töhfələr verir. "Azərsu" ASC-nin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun direktor müavini geologiya-mineralogiya elmləri doktoru Adışirin Ələkbərovun hidrogeologiya sahəsində araşdırmaları elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.***

Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu "Azərbaycanın geoekoloji xəritəsi"ni tərtib edib. Geologiya-mineralogiya elmləri doktoru Adışirin Ələkbərov və professor Yusif İsrafilov tərəfindən hazırlanmış yeni nəşr AMEA Geologiya İnstitutunda keçirilmiş Elmi Şuranın iclasında təqdim olunub.

Azərbaycan ərazisi üçün 1:600 000 miqyasda ilk dəfə hazırlanmış xəritədə geoloji mühitin texnogen təsir nəticəsində məruz qaldığı dəyişikliklər, zəlzələ ocaqları, palçıq vulkanları, sürüşmələr, torpaq çökmələri, sellər, şoranlaşmalar, eroziya və digər proseslər əks olunur. Burada ekzogen geoloji proseslərin intensiv inkişaf etdiyi ərazilərin sərhədlənməsi, ölkə ərazisinin içməyə yararlı yeraltı sularla təminatlılıq dərəcəsinə görə rayonlaşdırılması, həmçinin ekoloji əhəmiyyətli, ekoloji təhlükəli obyektlər, karbohidrogen və yeraltı su yataqları da yer alıb. Xəritədə dib çöküntüləri və torpaq qatının çirklənməsi, texnogen təsir altında geoloji gərgin proseslərin aktivləşmə meylləri, digər amillər və proseslər haqqında da əhatəli məlumat verilir.



A.Ələkbərovun metodikası əsasında hazırlanmış xəritənin baş redaktoru akademik Akif Əlizadə, redaktorları Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (DTXK) sədri, akademik Qərib Məmmədov və Bakı Dövlət Universiteti Coğrafiya fakültəsinin dekanı, coğrafiya elmləri doktoru Fərda İmanovdur. Xəritə DTXK Kartoqrafiya Fabrikində nəşr olunub.

# Beynəlxalq standartlara keçid üzrə təlim kursları davam etdirilir

*"Azərsu" Açıq Səhmdar Cəmiyyətində Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına keçidi istiqamətində işlər davam etdirilir. Beynəlxalq standartların tətbiqi Səhmdar Cəmiyyətin maliyyə-təsərrüfat vəziyyəti barədə beynəlxalq təşkilatlara və maliyyə institutlarına, dövlət orqanlarına, ictimaiyyətə dürüst və etibarlı məlumatların ötürülməsini və bu sahədə şəffaflığı təmin edir.*



Beynəlxalq maliyyə standartlarının tətbiqi bu sahədə nəzəri və praktik təcrübəsi olan yüksək ixtisaslı mütəxəssislərin hazırlığından əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan "Azərsu" ASC mütəxəssislərinin təcrübələrinin artırılması diqqətdə saxlanılır və onların konfrans, seminar və treninqlərdə iştirakı təmin olunur.

Mühasibat uçotu sahəsində çalışan mütəxəssislərin peşəkarlıq səviyyəsini artırmaq məqsədi ilə "Azərsu" ASC tərəfindən mütəmadi olaraq təlim kursları təşkil olunur. Təlimlər İAB-ın (Mühasiblərin Beynəlxalq Assosiasiyası) mühasibat uçotunun baza səviyyəsi, İCFM-in (Sertifikatlaşdırılmış Maliyyə Menecerləri İnstitutu) Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Audit və Maliyyə menecmenti, ACCA-nın ( Sertifikatlaşdırılmış və vəkil edilmiş Mühasiblər Assosiyasiyası) DipİFR (Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə Diplom) kvalifikasiya imtahanına hazırlıq proqramları əsasında keçirilir.

2012-2013-cü illərdə "Azərsu" ASC-nin 239 əməkdaşı təlimlərə cəlb olunmuşdur. Kursları müvəffəqiyyətlə başa vurmuş mütəxəssislər 103 ədəd diplom və sertifikat qazanmışlar.

Hazırda "Azərsu" ASC-nin regionlarda fəaliyyət göstərən idarə və müəssisələrinin də əməkdaşları yerlərdə təşkil olunan təlim kurslarına cəlb olunurlar. İndiyədək bölgələrdə keçirilən təlimlərə 79 nəfər cəlb edilmiş və onlardan 20 nəfəri müvəffəqiyyət qazanmışdır.

Beynəlxalq standartlara keçidlə əlaqədar "Azərsu" ASC-nin əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, iş təcrübəsinin yüksəldilməsi məqsədi ilə ixtisasartırma kurslarının təşkili gələcəkdə də davam etdiriləcəkdir.

Qeyd edək ki, 2012-ci ildə Səhmdar Cəmiyyətdə Beynəlxalq Maliyyə standartlarına keçid işlərini yüksək qiymətləndirən Böyük Britaniyanın Sertifikatlaşdırılmış Maliyyə Menecerləri İnstitutu "Azərsu" ASC-ni Beynəlxalq Maliyyə Hesabatları Standartlarına keçidi uğurla aparan təşkilat nominasiyasında 1-ci yerə layiq görmüşdür.

# "Azərsu" ASC-nin əməkdaşları nərd yarışlarında II yeri tutmuşlar



Görkəmli dövlət xadimi Kamran Hüseynovun 100 illik yubileyinə həsr olunmuş Sahə Həmkarlar İttifaqları Təşkilatlarının V respublika spartakiadasında "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin komandası uğurla çıxış etmişdir. Səhmdar Cəmiyyətin idarə və müəssisələrini təmsil edən idmançılar futbol, şahmat, nərd, dama, stolüstü tennis üzrə yarışlarda qüvvələrini sınamışlar. İdmançılarımız ən yüksək nailiyyəti nərd yarışlarında qazanmışlar. Bu yarışda komandamız respublika üzrə ümumi xal hesabında 2-ci yeri tutmuşdur. Bu uğurun əldə olunmasında "Azərsu" ASC-nin əməkdaşları Qafar Mədətov, Afiq Nuriyev, Namiq Fərgüzarovun böyük rolu olmuşdur.

Yarış iştirakçıları Respublika Həmkarlar İttifaqları Konfederasiyasının diplomları ilə təltif olunmuş və qaliblər "Azərsu" ASC tərəfindən qiymətli hədiyyələr təqdim edilmişdir.

Ümumilikdə spartakiada mini - futbol, voleybol, stolüstü tennis, şahmat, dama və nərd idman növləri üzrə keçirilmiş və yarışlarda 800-dən artıq idmançı iştirak etmişdir.



# Əzəl çərşənbə - su çərşənbəsi



***Qədim zamanlardan Novruz bayramını bolluq, bərəkət, firavanlıq simvolu kimi əzizləyərək qarşılayıblar. Novruza qədər olan ilaxır çərşənbələrinin hər birinin özünəməxsus ayin və mərasimləri var. Təbiətin dörd mühüm ünsürü ilə bağlı olan bu ilaxır çərşənbələrin sırası belədir: Su, Od, Külək (Hava, Yel), Torpaq.***

Novruzun müqəddəs çərşənbələrindən birincisi Su çərşənbəsi adlanır. Bu il su çərçənbəsi fevral ayının 25-nə düşmüşdür. Su çərşənbəsinə el arasında "Əzəl çərşənbə", "Gözəl çərşənbə", "Gül çərşənbə", "Sular Novruzu" da deyilir. İnanclara görə, həmin gün sular təzələnir. Həmin gün sübh tezdən insanlar bulaq üstünə gedər, əl-üzünü yuyar, bir-birinin üzünə su çiləyər, su üstündən atılar, evə su gətirərək həmin sudan çay qoyarlar. Deyilənə görə, Su çərşənbəsi günü su üstündən keçənlər azar-bezardan uzaq olarlar. Hətta söyləyirlər ki, Su çərşənbəsi günü bulaqların şəfası da artar. Bəlkə də buna görə qədimlərdə insanlar həmin gün su kənarında, bulaq başında, çay qırağında su çağıran, onun gözəlliyini, qüdrətini, müqəddəsliyini tərənnüm edən nəğmələr oxuyardılar.

Su çərşənbəsi ilə bağlı müxtəlif ayin və etiqadlar da var. Həmin gün su kənarında, bulaq başında dayanan insanlar ürəklərindən keçənləri suya söyləyərlər. Suyun qüdrətinə inananlar adətən, nikbin təbiətli olurlar. Söyləyirlər ki, ən pis qorxulu yuxunu da suya danışsan xeyir taparsan. Qədimlərdən nənələrimiz suya baxaraq dodaqaltı pıçıldayarmışlar: "Suyun bəndinə qurban, belə hər fəndinə qurban..." Su gələn yerlərə birlik gələr, bar-bəhər göyərər. Susuz çöllərin sinəsi cadar-cadar olar. Su olan yerdə həyat var, hətta ən gözəl qıza da tərif deyəndə onu su pərisinə, su sonasına bənzədərmişlər.

Su ilə bağlı atalar sözləri də maraqlıdır. Bu hikmət boğçasında diqqətçəkən müqayisələr var: "Suda boğulan saman çöpündən yapışar", "Suyun lal axanı, adamın yerə baxanı", "Su bardağı suda sınar", "Su axar çuxurun tapar". İnanclar da minillərin sınağından çıxıb. Ona görə də insanlar həmişə özünü doğrultmuş müdrik fikirlərə inam bəsləyərlər: "Qaynar suyu yerə tökməzlər", "Yuxuda su görmək aydınlıqdır", "Su içərkən adamı ilan da çalmaz", "Qonşunun suyunu kəsməzlər", "Su içəni vurmazlar", "Susuza su verməmək günahdır", "Ayaq üstə su içməzlər", "Odu su ilə söndürmək günahdır", "Yol böyüyündür, su kiçiyin", "Səfərə çıxanın arxasınca su atarlar". Alqışlar da maraqlıdır: "Su qədər ömrün olsun", "Su kimi duru olasan", "Su kimi paka çıxasan", "Axar murdar götürməz". Böyük Nizami onu da deyirdi ki: "Sözün də su kimi lətafəti var".

Su çərşənbəsi axşamı süfrəyə mütləq bir qabda su qoyulmalıdır. Şirniyyat, quru meyvələr düzülməlidir. Həmin axşam adətən, mərci plov bişirilməlidir. Çünki Su çərşənbəsində süfrənin bəzəyi lobyalı xörəklər sayılır. Bu gün insanlar bir-biri ilə mehriban davranmalı, arzulamalıdırlar ki, növbəti çərşənbələri də şad, xürrəm keçirsinlər. Su çərşənbəsinə qoşulan nəğmələrin birində belə bir ifadə var: "Allah, məni su elə, su gözəllər yüküdür". Həqiqətən də, çox gözəl deyimdir, həm də məntiqli düşünülübdür. Gözəllərin yükü sudan ibarətdir. Bəlkə də bulaqların aynasında güzgülənənin sevdası daha təmiz və dərin olur.

Beləliklə, elimizin gözəli, süfrəmizin bəzəyi, dörd çərşənbənin əzəli olan Su çərşənbəniz mübarək olsun! Atalar əbəs yerə onu Novruz çərşənbələrinin gözəli adlandırmayıblar. Biləsiniz ki, bu çərşənbədə yuxuda su görmək, dəryada üzmək, dənizə düşmək, çaydan keçmək, ümmanlarda qərq olmaq aydınlıqdır.